*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 332-337*

https://doi.org/10.62837/2025.8.332

**MƏMMƏDOVA ESMIRA**
***ADU, Azərbaycan dilçiliyi kafedrası***
***E/mail: memmedovaesmira@gmail.com***
***Orcid İD: 0009-0003-5015-8068***

# ANTROPONİMLƏRİN NÖVLƏRİ VƏ ƏSAS KATEQORİYALARI

**Xülasə**

Antroponimlər — insanlara verilən adlardır, bu vahidlər — dilçilikdə onomastikanın mühüm sahələrindən biridir. Bu vahidlər yalnız şəxs tanıtmaqla qalmır, həm də cəmiyyətin tarixi, mədəni, dini və sosial xüsusiyyətlərini əks etdirir. Antroponimlərin növləri və kateqoriyaları müxtəlif meyarlar əsasında sistemləşdirilir: əsasən, leksik-semantik, morfoloji, funksional və tarixibaxımdan.

Ən ümumi təsnifatda antroponimlər antroponim sistemi daxilində aşağıdakı kateqoriyalara ayrılır: adlar (antroponlar), soyadlar (familyonimlər), ata adları (patronimlər), ləqəblər (teonimlər, taxalluslar), təxəllüslər və nisbələr. Bu kateqoriyalar bir-biri ilə əlaqəli şəkildə, bir çox hallarda isə mədəni-məkan kontekstdə meydana çıxır.

Müasir onomastik tədqiqatlar göstərir ki, antroponimlər yalnız fonetik və qrammatik quruluş baxımından deyil, həm də funksional üslubi cəhətdən fərqlənir. Bədii ədəbiyyatda, publisistik üslubda, eləcə də gündəlik ünsiyyətdə antroponimlərin semantik yükləri, emosional dəyərləri və üslubi çalarları dəyişkənlik göstərir.

Tarixi baxımdan antroponimlər qədim türk tayfa adlarından, dini adlardan, peşə və sosial status bildirən sözlərdən, coğrafi adlardan və şəxsi keyfiyyətlərə işarə edən sözlərdən yaranmışdır. Bu da onların etno-mədəni mənşəyinin və sosial strukturların təzahürü kimi çıxış etməsinə səbəb olur.

Beləliklə, antroponimlərin növləri və kateqoriyaları yalnız leksik sistemin bir hissəsi deyil, həm də dil və mədəniyyətin qarşılıqlı əlaqəsini göstərən göstəricilərdir. Onların öyrənilməsi dilçiliklə yanaşı, etnoqrafiya, tarix, mədəniyyətşünaslıq və sosiologiya üçün də mühüm elmi əhəmiyyət kəsb edir.

**Açar sözlər**:antroponim, onomastika, ləqəb, soyad, ad kateqoriyaları

# TYPES AND MAIN CATEGORIES OF ANTHROPONYMS

**Esmira Mammadova**
***AUI, Departament of Azerbaijani Languistics***
***E/mail: memmedovaesmira@gmail.com***
***Orcid İD: 0009-0003-5015-8068***

**SUMMARY**

Anthroponyms — names and name-like units given to individuals — are an important branch of onomastics. These units not only identify people but also reflect the historical, cultural, religious, and social characteristics of society. The types and categories of anthroponyms are classified based on various criteria: lexical-semantic, morphological, functional, and historical. In the general classification system, anthroponyms are divided into names (proper names), surnames (familyonyms), patronymics, nicknames, pseudonyms, and relational names. These categories are interconnected and often arise in specific cultural-geographical contexts. Modern studies show that anthroponyms differ not only phonetically and grammatically, but also stylistically and functionally. Their semantic load and emotional tone vary across literary, journalistic, and everyday use. Historically, they originated from tribal names, religious terms, professions, geographic names, and personality traits — reflecting their ethno-cultural and social functions. Thus, anthroponyms are indicators of the interplay between language and culture, and their study holds significance not only for linguistics but also for ethnography, history, and sociology.
**Keywords**: anthroponym, onomastics, pseudonym, nickname, name categories

## ВИДЫ И ОСНОВНЫЕ КАТЕГОРИИ АНТРОПОНИМОВ

**Эсмира Мамедова**
***АУЯ, кафедра Азербайджанского языкознания***
***E/mail: memmedovaesmira@gmail.com***
***Orcid İD: 0009-0003-5015-8068***

## РЕЗЮМЕ

Антропонимы — это имена и именные единицы, присваиваемые человеку, — являются важным направлением ономастики. Эти единицы не только идентифицируют личность, но и отражают исторические, культурные, религиозные и социальные особенности общества. В зависимости от различных критериев (лексико-семантических, морфологических, функциональных и исторических) антропонимы делятся на определённые виды и категории. В общей классификации различают собственные имена, фамилии (фамильонимы), отчества (патронимы), прозвища, псевдонимы и нисбы (родовые обозначения). Эти категории часто пересекаются и формируются в определённых культурно-географических контекстах.

Современные исследования показывают, что антропонимы отличаются не только по фонетике и грамматике, но и по стилистическим и функциональным признакам. Их семантическая нагрузка и эмоциональная окраска варьируются в зависимости от жанра (художественный текст, публицистика, повседневная речь). Исторически антропонимы происходят от названий племён, религиозных терминов, профессий, географических объектов и личных качеств. Таким образом, они являются отражением взаимодействия

языка и культуры и представляют интерес для лингвистики, этнографии, культурологии и социологии.

**Ключевые слова**: антропоним, ономастика, псевдоним, прозвище, категории имён..

**Giriş.**

Ümumiyyətlə, antroponimik kateqoriyalar müasir Azərbaycan dilinin lüğət tərkibində iki formada işlənir: a) Əsas adlar- rəsmi sənədlərdə qeyd olunanlar. Məsələn; Qurbanov Adil Məmməd oğlu və s.

b) Köməkçi adlar-yalnız nitqdə, məişətdə işlənənlər. Məsələn Topal teymur, Yetim Əhməd və s.

Antroponimik sistemə daxil olan hər bir adın öz səciyyəvi cəhətləri var. Məsələn; Şəxs adları insana valideynləri, yaxınları tərəfindən verilir. Adların verilməsində. Seçilməsində də fərqlər var. islamaqədərki dövrdə şəxs adları əsasən, ümumi sözlərdən yaranırdı. Gün, Ay, Toprak, Dəniz, Himalay və s. bu system müasir dövrdə də işləkliyini qoruyub saxlamışdır [Qurbanov A. 2019: 78].

Eyni zamanda qədim dövrdə heç adlar təsadüfən qoyulmamış, "Dədə Qorqud"da gördüyümüz kimi, yalnız gənclərə bir xeyirli bir iş gördükdən sonra, bir igidlik göstərdikdən sonra verilmişdir. Məsələn; Basat, Beyrək, Buğac adlarında olduğu kimi.Dədə Qorqud: -Buğa yıxdın adını qoydum Buğac. Adını mən qoydum, yaşını tanrım versin [Nuriyeva M. 1999: 38-45]

İkinci istiqamət, ərəb dilinin, islamın qəbulu ilə bağlı olan dini adların işlənməsidir. Məsələn; Əli. Həsən. Hüseyn, Məryəm, Fatimə və s.

Sovet dövründə isə cəmiyyətin siyasi-ictimai-elmi inkişafının nəticəsi olaraq körpələrə sanki elmi nəticələrə əsaslanan, texniki tərəqqi ilə bağlı, ideoloji adlar verilirdi. Məsələn: Marks, Lenin-Ninel; kombayn, tractor, Təyyar (ə), kolxoz, Şura və s. saxlamışdır [Qurbanov,2019: 92].

Qeyd etmək lazımdır ki, müstəqilliyimizi əldə etdiyimiz son illərdə covet dövründən fərqli olaraq islami-dini adlara yenidən maraq artmışdır. Son illərdə körpələrə verilən adlar sırasında Əli, Məhəmməd, Hüseyn, Fatimə, Ayişə və s. adlar üstünlük təşkil edir.

Familiyalar, əsasən, ata xətti ilə keçir. Lakin onun da cpesifik cəhətləri vardır. Yəni ilk qədim dövrlərdə familiyalar olmamışdır. Insanlar atalarının, nadir hallarda isə analarının adı ilə çağırılmışlar. Məsələn; Kürdoğlu, Həsənoğlu, Məmmədoğlu və s.

Familiya sözü ingilis dilindəki fəmili (family)-ailə sözündəndir. Eyni ailədən olanlar, eyni nəslin üzvləri mənalarını ifadə edir. XIX əsrə qədər familiyalar olmamış, yalnız Rusiya ilə əlaqələr yarandıqdan sonra dilimizə familiyalar daxil olmuşdur. Məs., Əliyev, Məmmədov və s.

Familiyalarla bağlı müxtəlif fikirlər mövcuddur. Ruslara familiyaların verilməsi türklərlə əlaqələndirilir. Guya, heyvanların adlarını türklərin ərazilərində

yaşayan ruslara soyad kimi veriblər. Məsələn; Medvedyev, Volkov və s. [Əliyev, 2010: 33 ].

Bəzi qeyri-dəqiq məlumatlara görə isə, guya türklərə familiyalar ruslardan keçib: Həsənov, Qasımova və s.

Lakin son illərin tədqiqatlarında dilçi alimlərin gəldiyi qənaət belədir ki, bu soyadların formalaşması tarixi fərqlidir. Yəni Əli kişinin ailə üzvləri kəndin bir səmtində yan-yana ev tikib yaşamışlar, ona görə də ərazi Əli+evli+lər, Həsən+ev+li+lər və s. yaranmışdir [Qurbanova F.. 2001: 56].

Antroponimləri təsnif edərkən real və uydurma (qeyri-real) adlara da bölmək doğru olar. Çünki real adlar artıq dilimizdə mövcud olan, sabitləşmiş adlardır. Antroponimik lüğətlərdə əksini tapıb. Qeyri-real adları isə ya valideynlər, ya da yazıçılar özləri uydururlar. Məsələn; Altunsaç, Altunay, Gilə, Qaragilə və s.

Bədii əsərlərdə işlənmiş antroponimlər də real və uydurma olaraq iki yerə bölünür. Yazıçı baş, müsbət qəhrəmanlara müsbət, real və özünün çox sevdiyi adları verir. Məsələn N.Vəzirovun bir neçə əsərinin baş qəhrəmanları Fəxrəddin, Səadət adlandırılmışdır. Hətta yazıçı öz övladlarına da həmin adları vermişdir. Və yaxud, Səməd Vurğun çox sevdiyi şair Molla Pənah Vaqifə həsr etdiyi əsərini baş qəhrəmanın adı ilə “Vaqif” adlandırmış, öz oğul övladına da Vaqif adı vermişdir. Hətta rəvayətə görə Qubada bir dostunun evində qonaq olarkən həmin dostunun oğlu olması xəbəri gəlir. S.Vurğunu böyük hesab edən ailə ondan uşağa ad verməsini xahiş edir. Şair bu uşağa da Vaqif adını verir. Məlumdur ki, “vaqif” sözünün də mənası hər elmə bələd olan, elmli, bilikli kimi izah edilir. Şair bütün Azərbaycan övladlarını elmli-bilikli görmək, həm də Molla Pənahın adını əbədiləşdirmək kimi bir missiyanı həyata keçirmək istəmişdir.

Antroponimlər şəxs adlarıdır. Şəxs adları isə bütün xalqlarda olduğu kimi, Azərbaycanda və digər türk xalqlarında da kişi və qadın adlarına bölünür.

1) Kişi adları: müasir Azərbaycan ədəbi dilində 1000-ə qədər kişi adı işlənir ( A.Q. səh 29). Kişi adlarının başlıca xüsusiyyəti mərdlik, cəsarət, igidlik, möhkəmlik və s. kimi mənalar əsasında yaranmaqdan ibarətdir. Məsələn, Polad, Mətanət, Dəyanət, Vüqar, Aslan və s.

Kişi adlarının yaranmasında xalqın istək və arzusu, sevinci, kədəri də müəyyən dərəcədə öz əksini tapmışdır. Məsələn; Sevindik, İlkin, Qürbət, Əhsən və s.

2) Qadın adları kişi adları ilə bərabər meydana çıxmışdır. Lakin qadın adları semantic cəhətdən kişi adlarından fərqli xüsusiyyətlərə malikdir. Bu növ adlar, əsasən, zəriflik, mülayimlik, gözəllik kimi hissləri əks etdirir.

3) Adlar sistemində daha bir qrup isə müştərək işlənən adlardır. Həm qadınlara, həm də kişilərə verilə bilir. Məsələn; Arzu, Laçın, Xoşbəxt, Hicran, Şirin, Pərvin və s.

Mir Cəlal “Bir gəncin manifesti” əsərində baş uşaq qəhrəmanını Bahar adlandırmışdır.

I.Şəxs adlarını tərkibinə görə təsnif etsək, belə bir mənzərə alınar:

1)Təksözlü-təkkomponentli şəxs adları. Bu adların tərkibi bir komponentdən ibarət olur, tərkib hissələrinə bölünmür. Məsələn; Əli, Araz, Səlim, Qəmər və s.

2) Çoxsözlü-çoxkomponentli şəxs adları. Tərkibində iki və daha çox sözdən düzəlmiş adlar. Çoxkomponentlik daha çox kişi adlarında özünün göstərir. Bu adların tərkibində "ağa, xan, bəy, qulu, oğlan, şah, hacı, məşədi və s." köməkçi sözlər işlənir.

II. Şəxs adlarının qrammatik xüsusiyyətləri. Şəxs adlarının qrammatik cəhətlərindən danışsaq, ilk növbədə, onların hansı nitq hissələrindən düzəlməsi məsələsi ön plana gəlir:

-Sifətdən düzələnlər: Qara, Qaraş, Sarı, Gözəl, Yaxşı və s.

-Feildən düzəlmiş adlar: Yetər, Anar, Qorxmaz, Elsevər, Dursun və s.

III. Mənşəyinə görə şəxs adlarının təsnifatı.

Dilimizdə türk mənşəli adlar olsa da, alınma. əcnəbi adlar da üstünlük təşkil edir.

Milli adlar- Sevinc, Sevər, Yetər, Tapdıq, Daşdəmir, Dəniz, Bayram, Sevil, Könül, Qızxanım və s.

Alınma adlar, əsasən, dini adlardır, islamın qəbulu ilə bağlı olaraq dilimizə keçmişdir. Bəzən bu adların kombinasiyasından da yeni adlar formalaşmışdır. Məsələn; Əli, Həsən, Hüseyn, Məhəmməd, Məhəmmədəli, Həsənəli və s.

Bəzi adlara diqqət etdikdə onların bir hissəsinin milli, digər komponentin isə alınma olduğunu görürük. Belə adlar hibrid adlardır. Məsələn; Həsənxan, Əlibəy, Əlixan və s.

Şəxs adlarını semantik cəhətdən araşdırdıqda yenə bir neçə istiqamətdə formalaşdığının şahidi oluruq. Bunlar aşağıdakılardır:

1)Toponimlərlə bağlı olanlar: Altay, Qafqaz, Elbrus və s. Belə adlar topoantroponim adlanır.

2) Hidronimlərlə bağlı yaranmış hidroantroponimlər: Araz, Xəzər və s.

3) Zooantroponimlər-heyvan adları ilə bağlı yarananlar: Ceyran, Aslan, Kəklik, Laçın və s.

4)Bitki adları ilə bağlı yaranmış fitotoponimlər: Yasəmən, Qızılgül, Nərgiz, Gilas, Almaxanım və s.

5)Səma cisimlərinin adları əsasında yarananlar-kosmoantroponimlər: Ulduz, Venera, Günəş, Aygün, Aytəkin və s.

6) Daş-qaş adları ilə bağlı yaranan ktemato-antroponimlər: Yaqut, Firuzə, Brilyant, İnci, Zümrüd və s.

7)Arzu-istəklə bağlı yaranan şəxs adları: Arzu, Xəyal, Kifayət, Tamam, Yetər və s.

Bu cür nümunələrin sayını istənilən qədər artırmaq mümkündür. Uşaqlara gözəl adların verilməsi hər zaman diqqət mərkəzində olmalıdır. Prof.A.Qurbanov yazırdı ki, uşaqlara verilən adlar valideynin övlada ilk və ən böyük hədiyyəsidir. Elə bir ədiyyədir ki, insan onu doğulandan ölənəcən özü ilə daşımağa məcburdur. Müasir dövrdə uşaqlara gözəl ad qoyma məqsədilə antroponimlər lüğətləri yaradılmışdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 332-337*

Lüğətlərdən gözəl adların seçilməsi həm doğulan körpəyə ilk və ən gözəl hədiyyədir. Həm də bunun nəticəsində adların təkrarlarının qarşısını almaq da mümkündür. Adverma özü də xalqın mədəni səviyyəsinin göstəricilərindən biridir.

**Nəticə /Conclusion**

Müasir dövrdə isə advermə praktikasında ənənə ilə yeniliyin sintezi, qlobal ad modellərinin təsiri və fərdiləşmə meyli müşahidə olunur. Bu da antroponimikanın statik deyil, dinamik bir sistem olduğunu bir daha sübut edir.

Nəticə olaraq qeyd etmək olar ki, antroponimik sistemin öyrənilməsi yalnız dilçilik baxımından deyil, etnoqrafiya, tarix, sosiologiya, psixologiya və mədəniyyətşünaslıq sahələri üçün də mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, antroponimlərin sistemli şəkildə tədqiqi və toplanması dilimizin və kimliyimizin qorunması üçün strateji əhəmiyyət daşıyır.

**Ədəbiyyat**

1.Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb.-2006. I c. -744 səh
2. Əliyev, H. (1985), Ümumi antroponimika problemləri, Bakı:
3. Hacıyeva, N. (2020), Azərbaycan dilində ləqəblərin üslubi xüsusiyyətləri. Bakı: ADPU,Linqvistika problemləri,c.1.N2. səh 29-47
4. . Hüseynova H.Onomalogiyanın bəzi nəzəri məsələləri. Bakı: 103 səh.
5. Qocayeva, N.(2021), Təxəllüslərin üslubi-linqvistik xüsusoyyətləri. Bakı: Azərbaycan dili və ədəbiyyatın tədrisi jurnalı.N4, səh.35-44.
6.İbrahimova, S. (2024), Onomastik terminlər və onların semantic xüsusiyyətləri, Bakı: “Azərb.dili və ədəbiyyatın tədrisi”jurnalı.N1. səh.47-53
7.Qurbanov A. (2019), Azərbaycan onomologiyasının əsasları. I c. Bakı: -280 səh.
8.Qurbanov A. (2019), Azərbaycan onomalogiyasının əsasları. II c. Bakı: -432 səh.
9.Qurbanova F. (1997), Oğuz mənşəli türk dillərində antroponimlər sistemi. “Dilçilik” jurnalı, № 3, 1997. Səh. 28-33
10.Qurbanova F. (2001), Antroponimiyanın nəzəri məsələlərinə dair. Bakı: -136 səh.
11.Nuriyeva, M. (1999),Rus bədii ədəbiyyatında əski türk mənşəli adlar. AOP, № 7, səh.28-35
12. Paşayev, A. (2016). Azərbaycan təxəllüsşünaslığının ısasları. Bakı: -270 səh.
13.Баскаков Н.А.(1962), Введение в изучение тюркских языков. Москва: -386 стр.
14. https://azleks.az/online-dictionary/m%C3%BC%C5%9Ffiq

**Rəyçi: f.e.d.professor Həcər Hüseynova**